***PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ***
***ОРГАНИЗАЦИЯ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ***
***ORGANIZATION OF PSYCHOLOGICAL SERVICE***

*UOT 364.62*

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ YOLLARI

**Əminə Şahin qızı Əlizadə**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0005-2796-3573
**E-mail:** aminaalizada777@gmail.com

***Açar sözlər:*** *qiymətləndirmə, idarəetmə, psixoloji xidməti, təhsil, keyfiyyət*
***Ключевые слова:*** *оценка, управление, психологическая служба, образование, качество*
***Key words:*** *evaluation, management, psychological service, education, quality*

Psixoloji xidmətin əsas məqsədi təhsilalanların şəxsiyyətyönümlü potensiallarını, təbii imkan və qabiliyyətlərini, maraq və meyllərini, idraki fəaliyyətlərinin vaxtında aşkara çıxarılması, təlim və tərbiyə prosesi vasitəsilə həyata keçirilməsindən ibarətdir. Təhsil müəssisələrində minlərlə şagird təhsil alır və hər birinin psixoloji vəziyyəti, emosional durumu və idraki fəaliyyəti müxtəlifdir. Təhsildə sosial-psixoloji xidmətin təşkili şagirdlərin təhsil standartlarını yüksəltməklə yanaşı, həmçinin onların sosial, emosional və psixoloji inkişaflarını da təmin edir. Təhsil psixoloqları effektiv tədrisin ayrılmaz hissəsi olan və təhsilalan müəllimlərin öyrənməsi üçün həyati əhəmiyyət kəsb edən öyrənmə, inkişaf, motivasiya, qiymətləndirmə və idarəetmə sahəsində əhəmiyyətli təcrübəyə malikdirlər.

Ümumtəhsil müəssisələrində fəaliyyət göstərən psixoloqların əsas vəzifəsi təhsildə müəyyən çətinliklərlə qarşılaşan, yaş böhranları nəticəsində psixoloji problemlər yaşayan, inkişafı və davranışında, məktəb mühitində bəzi çətinliklər yaşayan şagirdləri müəyyən etmək və həmin şagirdlərin şəxsi emosional, psixoloji, intellektual inkişafının fərdi psixoloji xüsusiyyətlərini öyrənmək, təhsil müəssisələrində sosial psixoloji mühiti tədqiq etməkdir. (4) Amma təəssüflər olsun ki, hal-hazırda psixoloji-xidmət Azərbaycan və ya dünyanın əksər ölkələrində yüksək səviyyədə təşkil olunmadığı üçün şiddət, istismar, mobbing, bulling və digər şəxsi problemlərlə tək mübarizə aparmağa çalışırlar və buna görə də onlarda müxtəlif psixi problemlər yaranır ki, bu sadəcə onların özlərinə zərər verməsi ilə nəticələnmir, həmçinin dərsdən də uzaqlaşmalarına səbəb olur.

Aparılan bəzi araşdırmaların nəticələrində göstərilir ki, təhsildə sosial-psixoloji xidmətin inkişafı ilə bağlı müəyyən anketlər və sorğular aparılmışdır. Bu sorğular zamanı uşaqlara “Məktəb psixoloqunu tanıyırsınızmı?” sualı ünvanlanmışdır. Cavablar göstərmişdir ki, şagirdlərin əksəriyyəti məktəb psixoloqunu tanıdıqlarını qeyd etmiş, lakin onun kabinetinin yerini bilmədiklərini vurğulamışdır. Bundan əlavə, onlar məktəb psixoloqunun vəzifələrini yalnız qismən bildiklərini qeyd etmişlər. Məsələn, aparılan araşdırmalarda təhsil alanların 78%-i məktəb psixoloqunu tanıdıqlarını bildiriblər, lakin psixoloqun otağının yerini bilmədiklərini qeyd ediblər. Bu isə mövcud vəziyyətin düşündürücü olduğunu bir daha göstərir. (2)

Məktəb psixoloqları çox vaxt yalnız şagirdlərin davranış problemləri ilə məşğul olsalar da, onların əsas vəzifəsi psixoloji sağlamlığı dəstəkləmək, emosional rifahı qorumaq və ümumi inkişafı təmin etməkdir. Bu vəzifələrin düzgün yerinə yetirilməməsi qarışıqlıq və işin səmərəsizliyinə səbəb olur. Psixoloqların rolları və vəzifələri tam başa düşülməli, onların peşəkar inkişafı üçün təlimlər təşkil edilməli və məktəb rəhbərliyi ilə əməkdaşlıq gücləndirilməlidir. Bu yanaşma şagirdlərin psixoloji vəziyyətini yaxşılaşdıraraq, təhsil və şəxsi həyatlarında müsbət nəticələr əldə etmələrinə kömək edəcəkdir.

Psixoloqlar şagirdlərin psixoloji sağlamlığını təmin etmək üçün müəllimlər, valideynlər və rəhbərliklə əməkdaşlıq edir, vahidlik prinsipinə və açıq ünsiyyətə önəm verirlər. Bu yanaşma, təhsil və şəxsi həyatda çətinliklərin aradan qaldırılmasına və intellektual, emosional inkişafın dəstəklənməsinə şərait yaradır.

Azərbaycan Respublikasında ümumtəhsil müəssisələrində psixoloji xidmətin təşkili təxminən 32-33 il bundan öncə başlayıb. 1988-ci ildə SSRİ PEA-nın Elmi Tədqiqat və Pedaqoji Psixologiya İnstitutu tərəfindən hazırlanmış və İ.V. Dubrovinanın redaktorluğu ilə 1989-cu ildə nəşr edilmiş "Xalq Təhsili Sistemində Psixoloji Xidmət haqqında" Əsasnamə 1990-cı ildə Azərbaycan dilinə tərcümə edilmişdir. Həmin Əsasnamə ikinci dəfə 1999-cu ildə təkrarən nəşr olunmuşdur. Əsasnamə 6 bölmədən ibarətdir. (1)

"Ümumi müddəalar" adlanan 1 bölmədə psixoloji xidmətin məktəb üçün zəruriliyi xüsusi vurğulayıb. Əsasnamədə psixoloji xidmətin təhsil sisteminə daxil olan müxtəlif müəssisələrdə-bağçalarda, orta ümumtəhsil məktəblərində, texniki peşə məktəblərində, internat məktəblərində, uşaq evlərində təşkili nəzərdə tutulur. Psixoloji xidmət tibbi və defektoloji xidmət növləri ilə sıx bağlıdır. Psixoloq öz fəaliyyətini şagirdə hamilik və qəyyumluq orqanlarının, ictimai təşkilatların rəyi və mənafeləri ilə uyğunlaşdırmağı bacarmalı, adı gedən müəssisələrdə qarşılıqlı münasibətlərini bərabərlik və mövqelərin bir-birlərini qarşılıqlı əlaqədə tamamlanmasını təmin etməldir. (5).

Hal-hazırda praktiki psixologiyaya maraq artmaqdadır və bu hal təsadüfi deyildir. Çünki təhsil sisteminin ən əsas məqsədlərindən biri də inkişaf etmiş, azad düşüncəli, həyata yaradıcı yanaşan bir şəxsiyyət yetişdirməkdir. Elm və Təhsil naziri E. Əmrullayev də bu məsələyə diqqətlə yanaşır. O bildirib ki, "Məktəb psixoloqlarının sayı sinif komplektlərinin sayından asılı olan ştat vahididir. Elm və Təhsil Nazirliyi olaraq düşünürəm ki, bu məsələyə xüsusi diqqət ayırmalıdır. Bu istiqamətdə daha çox təşəbbüslərlə çıxış etməyi öhdəmizə götürürük. Hər bir şagirdin psixoloji rifahı, sağlamlığı və təhlükəsizliyi Təhsil Nazirliyi üçün prioritetdir." (4)

Yuxarıda da qeyd edildiyi kimi, müasir dövrümüzdə Azərbaycanda psixoloji xidmətin rolunu artırmaq üçün bir çox addımlar atılır. Amma hələ də psixoloji xidmətin lazımdı səviyyədə olmadığını görə bilirik. Düşünürük ki, bunun üçün atılacaq ən önəmli addım praktik psixoloqların sayının çoxaldılması və onların təhsil səviyyəsinin yüksəldilməsi olar. Çünki təhsil ekspertinin qeyd etdiyinə əsasən deyə bilərik ki, Azərbaycanda 3000-dən çox psixoloq fəaliyyət göstərir. Bunu 4400 məktəb sayı ilə müqayisə etdikdə fərqi görə bilirik. (4) Amma məktəb psixoloqlarının sayı məktəblərin sayından çox olmalıdır və həftənin müəyyən günləri mütəmadi şəkildə şagirdlər psixoloqla görüşməlidir.

Psixoloji xidmət sağlam cəmiyyətin formalaşmasına töhfə verərək, şagirdlərin akademik, emosional və sosial inkişafını dəstəkləyir. Məktəblərdə bu xidmətin səmərəliliyini artırmaq üçün problemlərin təhlili və həlli vacibdir. Effektiv yanaşma məktəb mühitini daha güvənli

edərək psixoloji dəstəyin təsirini gücləndirir və həm şagirdlərin, həm də cəmiyyətin inkişafına müsbət təsir göstərir.

**Problemin aktuallığı.** Azərbaycanda ümumtəhsil müəssisələrində psixoloji xidmətin mövcud vəziyyətini qiymətləndirmək təhsilin keyfiyyətinə olan təsirini araşdırmaq üçün vacibdir. Müasir dövrdə şagirdlərin sosial və emosional inkişafı təhsil sisteminin əsas məqsədlərindən biri olaraq qəbul edilir. Məktəbdə psixoloji xidmətin effektiv şəkildə təşkili isə şagirdlərin rifahını artırmaq və onların akademik nailiyyətlərini yaxşılaşdırmaqda önəmli rol oynayır.

**Problemin elmi yeniliyi.** Bu məqalə, təhsildə psixoloji xidmət sahəsindəki çatışmazlıqları üzə çıxarmaq və onların həll yollarını təklif etmək üçün aparılan tədqiqatın nəticələrini təqdim edir. Belə yanaşmalar Azərbaycanda məktəb psixologiyası sahəsində təhlil və idarəetmənin inkişafına töhfə verir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalə sosial-psixoloji xidmətin təhsilə nə qədər təsirini öyrənib, ona əsasən sosial-psixoloji xidmətin təşkilində ortaya çıxan problemləri müəyyən etməkdir. Məqalə, təhsil müəssisələrində psixoloji xidmətin optimallaşdırılması və şagirdlərin emosional və akademik inkişafına daha səmərəli dəstək göstərmək üçün geniş şəkildə istifadə edilə bilər.

## Ədəbiyyat

1. 1. Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları. I kitab. Bakı: MBM, 2006, 268 s.
2. https://dergipark.org.tr/tr/download/article-file/330433
3. https://dergipark.org.tr/tr/download/article-file/1928771
4. https://525.az/news/201485-mektebde-psixoloji-xidmet-tehsilde-yukselise-yardim-edir
5. https://e-qanun.az/framework/41280.

**А.Ш. Ализада**

## Пути организации психологической службы в общеобразовательных учреждениях

### Резюме

Это исследование рассматривает текущее состояние психологической службы в общеобразовательных учреждениях Азербайджана и выявляет ключевые проблемы. Психологическая служба направлена на поддержку социально-эмоционального благополучия учащихся, решение проблем, возникающих в процессе обучения, и содействие их личностному развитию. Результаты исследования показывают недостаток эффективного взаимодействия между учащимися и школьными психологами, низкую мотивацию психологов и общественные установки, мешающие учащимся обращаться за помощью. Организация социально-психологической службы в школах имеет важное значение для повышения качества образования.

**A.Sh. Alizade**

**Ways to organize psychological services in general education institutions**
**Summary**

This study examines the current state of psychological services in general education institutions in Azerbaijan and identifies key challenges. Psychological services aim to support students' socio-emotional well-being, address problems encountered during the learning process, and promote their personal development. The findings reveal a lack of effective communication between students and school psychologists, low motivation among psychologists, and societal attitudes that discourage students from seeking help. The organization of social-psychological services in schools is crucial for improving the quality of education.

**Redaksiyaya daxil olub:** 20.11.2024